




# Qarabağ və Şərqi Zəngəzur gündən-günə canlanır

***Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işlərinin aparıldığını, şəhərlərin yenidən qurulduğunu, kəndlərin yenidən salındığını, bundan əsas məqsədin isə keçmiş məcburi köçkünlərin tezliklə doğma yurdlarına layiqincə qaytarılması olduğunu bildirib. Dövlətimizin başçısı deyib: "Bütövlükdə həm Qarabağda, həm də Şərqi Zəngəzurda quruculuq, abadlıq işləri planlı şəkildə aparılır. Biz elə etməliyik ki, qısa müddət ərzində ancaq böyük səmərə ilə və böyük keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazini yenidən quraq. Çünki mənfur düşmən işğal dövründə bütün şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edib, bütün tarixi abidələrimizi dağıdıb, təhqir edib. Biz isə qurub-yaradan xalqıq. Müharibədən cəmi bir ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq, biz artıq qurub-yaradırıq...".***

Xatırladaq ki, dövlətimizin başçısı martın 20-də Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikini Tərtər rayonunun Suqovuşan qəsəbəsinə səfəri zamanı çatdırıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qəsəbədə olarkən, burada bərpa-quruculuq işlərinin gedişi ilə maraqlanıb, fərdi evdə aparılan təmir-bərpa işləri ilə tanış olub, turizm kompleksinin və yeni tikiləcək məscidin təməlini qoyublar, eləcə də "N" saylı hərbi hissəsinin açılışında iştirak ediblər.

Yeri gəlmişkən, Suqovuşanda ilk olaraq ərazinin mina və partlamamış sursatlardan təmizlənməsinə başlanılıb. Qısa vaxtda uzunluğu 28,8 kilometr olan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu ikinci texniki dərəcəyə uyğun yenidən qurulub. Gücü 4,8 meqavat olan "Suqovuşan-1" və gücü 3 meqavat olan "Suqovuşan-2" stansiyalarında, eləcə də Tərtər və ətraf rayonların suvarma suyu ilə təmin olunmasında mühüm əhəmiyyətə malik Suqovuşan su anbarında təmir-bərpa işləri aparılıb.

Prezident İlham Əliyevin müəyyənləşdirdiyi müasir inkişaf strategiyasına əsasən, Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Bu çərçivədə ötən il mayın 3-də dövlətimizin başçısı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Eyni zamanda, Azərbaycanın Energetika Nazirliyi ilə Yaponiyanın "Tepsco" şirkəti arasında da işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanmasına başlanıb. Həmçinin ötən ilin iyunun 3-də adıçəkilən nazirliklə BP şirkəti arasında Zəngilan-Cəbrayıl zonasında 240 meqavat gücündə günəş elektrik stansiyasının tikintisinin aparılması barədə razılığa gəlinib.

Dövlətimizin başçısının həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində ölkəmizdə enerji infrastrukturu davamlı olaraq təkmilləşdirilir və modernləşdirilir. Yeni elektrik stansiya və yarımstansiyaların istifadəyə verilməsi əhalinin dayanıqlı elektrik enerjisi ilə təmin olunmasına xidmət edir, eyni zamanda, ölkəmizin ixrac imkanlarını artırır. Prezidentin Ağdam və Ağcabədi rayonlarına səfəri zamanı "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin, Ağcabədi rayonunda "Ağcabədi" yarımstansiyasının açılışlarını etməsi ölkəmizin hər bir bölgəsində müasir enerji infrastrukturunun yaradılmasının əyani təzahürüdür.

Qarabağın dirçəldilməsi prosesində diqqət yetirilən əsas sahələrdən biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir. Ağdam şəhərində "Park Forest Otel Ağdam" mehmanxanasının inşa olunması da məhz buna xidmət edir. Strateji mövqeyinə görə Qarabağın giriş qapısı hesab edilən Ağdam rayonunda ən müasir standartlara cavab verən mehmanxananın inşasının sürətlə dirçəldilən tarixi ərazilərimizin turizm potensialının inkişafına verə biləcəyi töhfə, işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Ağdam rayonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti göstəricisidir.

Ağdamda 210 çarpayılıq rayon mərkəzi xəstəxanasının inşasına başlanılıb. Bundan başqa, növbəti mərhələdə rayon üzrə daha bir neçə səhiyyə müəssisəsinin tikintisi nəzərdə tutulub. Belə ki, qarşıdakı dövrdə Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Tibbi Yardım Stansiyası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası, çoxprofilli modul tipli xəstəxana, onkoloji, 50 çarpayılıq psixiatriya və 50 çarpayılıq vərəm əleyhinə xəstəxanalar, 20 çarpayılıq Narkoloji Dispanser, Regional Perinatal Mərkəz və QİÇS-lə Mübarizə Mərkəzi, 20 həkim məntəqəsi və ya kiçik həcmli Ailə Sağlamlıq Mərkəzi, habelə Regional Tibb Kollecinin də inşası planlaşdırılıb.

Düşməndən təmizlənən ərazilərimizdə tarixi abidələrin bərpasında Heydər Əliyev Fondu mühüm rol oynayır. Mədəni irsimizə hər zaman böyük diqqət və qayğı göstərən Birinci vitse-prezident Mehriban xanım Əliyeva işğaldan azad edilən torpaqlarda da mədəni və dini abidələrin bərpasına xüsusi önəm verir. Fond tərəfindən Şuşa şəhərində Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri, Molla Pənah Vaqifin məqbərəsi və Ağdam şəhər məscidində görülən bərpa-restavrasiya işləri dini-tarixi dəyərlərimizə verilən yüksək önəmin göstəricisidir.

Prezident İlham Əliyevin ölkəmizdə həyata keçirdiyi iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. Bu baxımdan yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin tətbiqi - sənaye zonalarının yaradılması xüsusi önəm kəsb edir. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, neft-qaz amilindən asılılığın azaldılmasında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir. Vətən müharibəsində Azərbaycanın qazandığı böyük zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası ölkəmizin sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları azad edilmiş ərazilərimizə investor marağını da artırır. Ağdamın Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovşağında yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. Ağdam Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.

Yüz doxsan hektar ərazini əhatə edən Ağdam Sənaye Parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin təşkili müəyyənləşdirilib.

Sənaye parkı ərazisinin 74 hektardan çox hissəsi mina və hərbi sursatlardan təmizlənib. Rezidentlər fəaliyyətə başlayanadək burada bütün lazımi şəraitin yaradılması nəzərdə tutulub. İşçilərin rahatlığının təmin edilməsi məqsədilə artıq parkda mobil tipli şəhərcik salınıb. Burada rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, mağaza, aptek və yeməkxana yaradılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri aparılıb.

Sənaye parkının ərazisində tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədilə 350 metr dərinliyində subartezian quyusu qazılıb. Əraziyə 10 kilovatlıq elektrik xətti çəkilib və 630 kilovatlıq komplekt transformator məntəqəsi quraşdırılıb. Yeri gəlmişkən, işğaldan azad olunduqdan sonra Ağdam şəhərində ilk elektrik enerjisi və su təchizatı sistemi Ağdam Sənaye Parkının ərazisində yaradılıb.

Hazırda parkın işıqlandırılmasında Günəş enerjisindən qidalanan "Made in Azerbaijan" brendli panellərdən istifadə edilir.

Ağdam Sənaye Parkının 74 hektar ərazisində topoqrafik planlama və mühəndis-geoloji tədqiqat işləri yekunlaşdırılıb. Topoqrafik planlama zamanı parkın ərazisində dağılmış tikililərin geometrik ölçüləri müəyyən edilib və ərazidən daşınması nəzərdə tutulan tullantıların həcmi dəqiqləşdirilib. Geoloji-tədqiqat işləri zamanı isə parkın ərazisində süxurların tərkibi və litoloji təsviri, qruntun fiziki və mexaniki xüsusiyyətləri müəyyənləşdirilib.

Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Hazırda İqtisadi Zonaların İnkişafı Agentliyində sahibkarlar tərəfindən təqdim edilən daha 10-dan çox layihəyə baxılır. Havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı, beton istehsalı, ağır texnikaya texniki xidmətin göstərilməsi və bununla əlaqədar olaraq bəzi metal ehtiyat hissələrinin bərpası və istehsalı, ortopedik matras və yumşaq mebellərin (divan və kresloların), kanalizasiya və içməli su borularının istehsalı və s. təqdim olunan layihələr üzrə əsas fəaliyyət istiqamətləridir.

Sənaye parkının rezidenti statusu verilən beş sahibkar tərəfindən bura 37 milyon manata yaxın investisiyanın yatırılması və minə yaxın iş yerinin yaradılması nəzərdə tutulub.

***Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"***